Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir
Heydər ƏLİYEV

GÖMRÜK XƏBƏRLƏRİ

25 SENTYABR 2020-ci il
№ 24 (1180)

Qəzet 1995-ci il iyunun 30-dan çıxır

CUSTOMS NEWS | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin orqanı | ВЕСТНИК ТАМОЖНИ

Azərbaycan BMT-nin daha da güclənməsi üçün digər dövlətlərlə birgə işləməyə hazırdır

Sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas, sentyabrın 24-də isə BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatları keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda və ümumi debatlarda videoformatda çıxış edib.

BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda ümumilikdə 182 ölkənin dövlət və hökumət başçısı videoformatda çıxış edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı sayca altıncı idi. Dünya üzrə 182 ölkə arasında Azərbaycanın dövlət başçısının sayca altıncı çıxış etməsi şübhəsiz ki, Prezident İlham Əliyevə həm Azərbaycanın dövlət başçısı, həm də Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq səviyyədə göstərilən hörmət və etimadın təzahürüdür.

Qeyd edək ki, dövlətimizin başçısı çıxışını iki hissədə - Qoşulmama Hərəkatının sədri və Azərbaycan Prezidenti kimi etdi.

Prezident İlham Əliyev çıxışında bildirdi ki, Azərbaycan Respublikası 120 ölkənin yekdil qərarı ilə 2016-cı ildə Qoşulmama Hərəkatının sədri seçilmişdir. 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında Azərbaycan sədrliyi öz üzərinə götürmüşdür.

Bu çıxışımı Qoşulmama Hərəkatına üzv dövlətlərin adından etməyə şərəf duyuram.

Qoşulmama Hərəkatına üzv dövlətlər BMT Nizamnaməsinin imzalanmasının 75-ci ildönümünə həsr edilmiş bu Yüksək Səviyyəli İclasın keçirilməsini yüksək qiymətləndirirlər.

BMT, onun nizamnaməsi və beynəlxalq hüquq dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanılmasında və beynəlxalq əməkdaşlığın gücləndirilməsində mühüm və əvəzolunmaz alətlərdir. Məhdudiyyətlərinə baxmayaraq, BMT hazırda bütün ölkələrin qarşılaşdığı qlobal məsələ və çağırışların müzakirəsi üçün çoxtərəfli mərkəzi forum olmaqda davam edir.

Qoşulmama Hərəkatı təsdiq edir ki, narahatlıq doğuran yeni sahələr və çağırışlar meydana gəlib. Burada BMT Nizamnaməsinin prinsip və məqsədlərinin, beynəlxalq hüququn prinsiplərinin bərqərar olunması və qorunması üçün beynəlxalq ictimaiyyət tərəfindən müvafiq öhdəlik yenidən nümayiş etdirilməlidir.

İnsan hüquqlarının pozulması, maliyyə böhranları və ekologiyanın pisləşməsi ilə müşahidə olunan silahlı münaqişələr, təcavüzkar ekspansionist siyasətlər, terrorçuluq, separatizm, beynəlxalq mütəşəkkil cinayətkarlıq və ekstremizm dünyada milyonlarla insana mənfi təsir etməkdə davam edir.

Bu gün dünyanın hər zaman olduğundan daha çox beynəlxalq hüquqa hörmət və bunu təmin etmək iqtidarında olan səmərəli qlobal təsisatlara ehtiyacı var. Bu baxımdan Qoşulmama Hərəkatının rolu mühüm əhəmiyyətə malikdir. Özünün tarixi boyunca Qoşulmama Hərəkatı beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsində fundamental rol oynamış və davamlı olaraq beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət edilməsinə çağırmışdır. Qoşulmama Hərəkatı BMT-nin rolunun gücləndirilməsinə çox böyük əhəmiyyət verir və onun potensialından tam istifadə olunması üçün səylərin göstərilməsini vacib hesab edir.

Yaranmasının 75-ci ildönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqanı kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq.

BMT universal üzvlüyü təmin edən yeganə qlobal təsisatdır və beləliklə də dayanıqlı inkişafa nail olunması məqsədilə qlobal iqtisadi idarəçiliyi əhatə etmək iqtidarındadır. Bu səbəbdən BMT-nin qlobal iqtisadi idarəçilikdə rolu gücləndirilməlidir. Qlobal iqtisadi idarəçilikdə müvafiq rolu oynamaq üçün təşkilat çərçivəsindəki proseslərə, multilateralizmə və onun təməl dəyərlərinə sadiqlik baxımından bütün üzvlərin siyasi iradəsi olduqca əhəmiyyətlidir.

Bu gün davam edən COVID-19 pandemiyası multilateralizmin əhəmiyyətini bir daha nümayiş etdirir.

Qoşulmama Hərəkatı artmaqda olan, BMT Nizamnaməsini və beynəlxalq hüququ sarsıdan, birtərəflilik və birtərəfli tədbirlərdən istifadə halları ilə bağlı ciddi narahatlığını vurğulayır, ədalətli, bərabərhüquqlu dünya nizamının və qlobal demokratik idarəçiliyin yaradılması üçün BMT-nin Nizamnaməsinə və beynəlxalq hüquqa ciddi riayət olunması vasitəsilə multilateralizmin və BMT çərçivəsində çoxtərəfli qərar qəbul olunması prosesinin təşviqi, qorunması, canlandırılması, islahatların aparılması və gücləndirilməsinə sadiqliyini bir daha qeyd edir.

Bu il Qoşulmama Hərəkatı üçün də əlamətdardır, çünki biz Hərəkatın təməl prinsiplərini özündə əks etdirən Bandunq Bəyannaməsinin qəbul edilməsinin 65 illiyini qeyd edirik.

Qəbul edildiyi gündən Bandunq Prinsipləri onlara sadiqliyini bəyan edən dövlətləri Soyuq müharibə dönəmində istiqamətləndirmişdir. Soyuq müharibədən sonra qarşı-qarşıya dayanan iki blokun mövcud olmaması Bandunq Prinsiplərinin əhəmiyyətini və qüvvəsini heç də azaltmayıb. Əksinə, sülh və inkişafa dair mürəkkəb çağırışların fonunda onlar bu gün hər zaman olduğundan daha əhəmiyyətlidir.

Hər iki ildönümü bizə BMT Nizamnaməsində və Bandunq Bəyannaməsində əks olunmuş əsas hədəflərə nail olmaq istiqamətində əldə etdiyimiz tərəqqini nəzərdən keçirməyə və bizə - BMT-yə üzv olan dövlətlərə meydana çıxmaqda davam edən çoxşaxəli çağırışlara ümumi baxışla və gücümüzü səfərbər etməklə necə cavab verəcəyimiz üzərində düşünməyə imkan yaradacaq.

Sonra Prezident İlham Əliyev Azərbaycan adından çıxış edərək bildirdi ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv olmuşdur. Müstəqillik ən yüksək dəyərdir və Azərbaycan xalqının hər zaman azad və müstəqil dövlətdə yaşamaq ümidinin və istəyinin təzahürüdür. Təqribən 30 illik müstəqilliyi dövründə Azərbaycan müxtəlif sahələrdə çox böyük tərəqqiyə nail olmuşdur.

Bütün üzv dövlətlər BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürmüşlər. Lakin Ermənistan öz öhdəliklərini kobud şəkildə pozmuş və Azərbaycana qarşı hərbi güc tətbiq etmişdir. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etmişdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir.

Ermənistan işğal olunmuş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirmişdir. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan Xocalı soyqırımını törətmişdir. Ondan çox ölkə Xocalı soyqırımını tanımışdır. Ermənistan işğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasəti həyata keçirir. Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv edib.

Ermənistan qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca mülki əhalini qəsdən hədəf alır və təxribatlar törədir. Ermənistan sonuncu təxribat aktını iyul ayında Ermənistan-Azərbaycan sərhədində törətdi. Azərbaycanın Tovuz rayonunun artilleriya atəşinə məruz qalması nəticəsində hərbçilərimiz və bir mülki şəxsimiz öldürüldü, mülki infrastruktura ciddi zərər vuruldu. Ermənistanın diversiya dəstəsi təmas xəttini keçməyə cəhd etmişdir. 2020-ci il avqustun 23-də həmin dəstənin başçısı Azərbaycan hərbçiləri tərəfindən yaxalanmışdır. O, dəstə tərəfindən azərbaycanlı hərbçilər və mülki vətəndaşlara qarşı terror aktlarının törədilməsinin planlaşdırıldığını etiraf etmişdir.

Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. O, danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir. Sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır.

Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Bu, Ermənistan rəhbərliyinin yeni təcavüzkar niyyətini açıq şəkildə nümayiş etdirir.

davamı 2-ci səh.

Rəsmi xronika

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olublar.

Koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, o cümlədən yeni təcili tibbi yardım avtomobillərinin təminatı vacib amillərdəndir. Prezident İlham Əliyevin tapşırığı ilə bu sahədə bütün lazımi işlər görülür.

Yeni sifariş olunan təcili tibbi yardım avtomobillərinin ilk hissəsi iyul ayında, növbəti hissəsi isə indi gətirilib. Yeni gətirilən avtomobillər həm sadə, həm də reanimobil kimi dəstləşdirilib. Ambulansların salonlarının təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icra olunmasına imkan verir.

* * *

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti Ermənistanın təxribatı nəticəsində dövlət sərhədində Azərbaycan hərbi qulluqçusunun şəhid olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana daim göstərdiyi dəstəyi yüksək qiymətləndirib.

Dövlət başçıları dost və qardaş Türkiyə ilə Azərbaycanın həmişə olduğu kimi, bundan sonra da bir-birinin yanında olacağını vurğulayıblar.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin gələcək inkişafı ilə bağlı məsələlər müzakirə edilib.

* * *

Sentyabrın 22-də Ukrayna Prezidenti Vladimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Dövlət başçıları pandemiya ilə mübarizə sahəsində Ukraynada və Azərbaycanda həyata keçirilən işlərdən danışıblar.

Söhbət zamanı Vladimir Zelenski bildirib ki, Ukraynanın yeni milli təhlükəsizlik strategiyasında Azərbaycan strateji tərəfdaş kimi göstərilib.

Prezident İlham Əliyev, öz növbəsində, qeyd edib ki, Azərbaycan üçün də Ukrayna strateji tərəfdaşdır.

Dövlət başçıları Ukraynanın və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələlərində ölkələrimizin bir-birini dəstəklədiyini qeyd ediblər.

Telefon söhbəti zamanı enerji, nəqliyyat, investisiya, aviasiya sənayesi, kənd təsərrüfatı, turizm, humanitar və idman sahələrində əməkdaşlığın genişləndirilməsi üçün konkret addımların atılmasının zəruriliyi qeyd edilib.

Prezident İlham Əliyev Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən hərbi təxribatlar barədə Ukrayna Prezidentini məlumatlandırıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 23-də Bakının Balaxanı qəsəbəsində aparılan abadlıq işləri ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Balaxanı qəsəbəsində aparılan abadlıq işləri barədə məlumat verilib.

Bakının bu qədim qəsəbəsi artıq yeni turizm marşrutu kimi təsdiqlənib. Bu, qəsəbədə yeni sahibkarlıq subyektlərinin, xüsusilə sənətkarlıq, xidmət və ticarət istiqamətlərində biznesin qurulmasını təşviq edəcək.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Balaxanı sakinləri ilə görüşüblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də İsveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristian Kamillin etimadnaməsini qəbul edib.

Səfirlə söhbətində Prezident İlham Əliyev deyib ki, ümidvaram sizin Azərbaycandakı fəaliyyətiniz zamanı ölkələrimiz arasında münasibətlərin inkişafı uğurla davam edəcək. Tezliklə ölkəmizə səfərə gələcək sizin Xarici İşlər nazirinizi qəbul etməyi və əməkdaşlığımızla bağlı geniş məsələləri, habelə Avropa İttifaqı ilə gələcək əməkdaşlığımızı müzakirə etməyi səbirsizliklə gözləyirik. Bildiyiniz kimi, İsveç Avropa İttifaqı ilə regionumuz arasında daha geniş əməkdaşlıqla bağlı həmişə fəal olub. Avropa İttifaqı ilə Azərbaycan arasında indi çox yüksək səviyyəli tərəfdaşlıq mövcuddur və bu tərəfdaşlıq bir çox sahələri əhatə edir. Ümidvaram ki, yeni sazişlə bağlı danışıqlar uğurla davam edəcək.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.

Avropa İttifaqının xüsusi nümayəndəsini salamlayan Prezident İlham Əliyev dedi ki, keçən dəfə fevral ayındakı görüşümüzdən bəri regionumuzda bir çox şey dəyişib. Əfsuslar olsun ki, region daha təhlükəsiz bir məkana çevrilməyib. Təəssüf ki, vəziyyət mənfi məcraya doğru gedir. Bu da əsasən Ermənistanın Azərbaycana qarşı davamlı hərbi təxribatlarına görə baş verir.

Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Mən, sadəcə olaraq, sizin bunu bilməyinizi və bu mesajı Avropa Komissiyasına çatdırmağınızı və Avropa Komissiyasının təcavüzkarın yeni təxribatlarını dayandırmaq üçün nə edə biləcəyini görmək istəyirəm.

Azərbaycan BMT-nin daha da güclənməsi üçün digər dövlətlərlə birgə işləməyə hazırdır

əvvəli 1-ci səh.

Ermənistanın müdafiə naziri Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyanatları ilə hədələyir.

Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde milli qəhrəmana çevrilib. Ermənistanın rəsmi ideologiyasında "Azərbaycanofobiya" siyasəti hökm sürür. Gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır. Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub.

Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik.

Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir.

Azərbaycan BMT ilə səmərəli əməkdaşlıq qurmuşdur. Ölkəmiz 155 dövlətin dəstəyi ilə 2012-2013-cü illərdə Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bundan əlavə, hazırda Azərbaycan 120 dövlətin yekdil dəstəyi ilə Qoşulmama Hərəkatına sədrlik edir.

Qoşulmama Hərəkatının COVID-19-a qarşı onlayn formatda Zirvə görüşü təşəbbüsümüz əsasında 2020-ci ilin may ayında keçirildi. Zirvə görüşündə mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizə üzrə dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdim. Bu təşəbbüsü 130-dan çox ölkə dəstəklədi.

BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyası cari il iyulun 10-da çağırılmışdır. Hesab edirəm ki, xüsusi sessiya zamanı dövlət və hökumət başçıları səviyyəsində ümumi müzakirələr pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaqdır. Həmçinin onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə böyük töhfə verəcəkdir.

Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət nəzarət altındadır. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə töhfələri etmişik. COVID pandemiyası ərzində Azərbaycan 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Azərbaycan mədəniyyətlərarası dialoqun təşviqində vacib rol oynayır. Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindəndir. 2008-ci ildə Azərbaycan tərəfindən başlanılmış "Bakı Prosesi" mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi məqsədini daşıyır. "Bakı Prosesi" İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv dövlətləri bir araya gətirib. İki ildən bir Azərbaycanda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma kimi tanınmışdır.

2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Azərbaycanda keçirilmişdir. Bundan əlavə, Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarını və 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını təşkil etmişdir. Həmin idman yarışları da mədəniyyətlərarası dialoqa mühüm töhfə olmuşdur.

Azərbaycan sabit, müasir və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının qorunması hökumətimizin başlıca prioritetləri sırasındadır. Bütün fundamental hüquqlar, o cümlədən ifadə azadlığı, media azadlığı, toplaşma azadlığı, dini etiqad azadlığı və vətəndaş cəmiyyətinin inkişafı tam şəkildə təmin edilir. Bir neçə ay öncə biz geniş siyasi dialoq təşəbbüsünü başlatmışıq. Bütün əsas siyasi partiyalar həmin təşəbbüsü dəstəkləyib. Uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafının təmin olunması işinə xidmət edəcəkdir.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmiş və son 17 ildə ümumi daxili məhsul üç dəfə artmışdır. Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında böyük tərəqqi əldə etmiş Azərbaycan qısa vaxt ərzində BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir. "2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı"nda yer almış "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə Azərbaycan 166 ölkə arasında 54-cü yerdədir.

Əminəm ki, hazırkı müzakirələrimiz zamanı biz multikulturalizmin və beynəlxalq əməkdaşlığın simvolu olan BMT-yə açıq və güclü dəstək verəcəyik. Azərbaycan BMT-nin daha da güclənməsi, onun beynəlxalq münasibətlərdə əhəmiyyətinin və nüfuzunun yüksəlməsi üçün digər dövlətlərlə birgə işləməyə hazırdır.

Sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatları keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümumi debatlarda videoformatda çıxış edib və bildirib ki, mən BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri cənab Volkan Bozkırı bu vəzifəyə seçilməsi münasibətilə təbrik edirəm. Qardaş Türkiyənin nümayəndəsinin belə mötəbər vəzifəyə seçilməsi bizi məmnun etdi. Sizi əmin etmək istəyirəm ki, bu məsuliyyətli və şərəfli işinizdə Azərbaycan sizi dəstəkləməkdən ötrü səylərini əsirgəməyəcək.

Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinə əsasən, "sülh olmadan dayanıqlı inkişaf, dayanıqlı inkişaf olmadan isə sülh mümkün deyil". Dayanıqlı beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi üçün işğala son qoyulmalıdır. Beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası təmin edilməlidir.

Azərbaycan ərazisinin təqribən 20 faizi 30 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan BMT Nizamnaməsini kobud şəkildə pozaraq Azərbaycana qarşı hərbi güc tətbiq etmiş, Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu işğal etmişdir. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Ermənistan işğal etdiyi ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirmişdir. Bütün azərbaycanlı əhali işğal edilmiş ərazilərdən qovulmuşdur. Ermənistan azərbaycanlı mülki şəxslərə qarşı bir sıra müharibə və insanlıq əleyhinə cinayətlər törətmişdir. Torpaqlarımızın işğalına görə məsuliyyətdən yayınmaq məqsədilə Ermənistan həmin ərazilərdə cinayətkar, terrorçu, qondarma rejim yaratmışdır.

1992-ci ildə Ermənistan Xocalı soyqırımını törətmişdir ki, onun nəticəsində Xocalının 106-sı qadın və 63-ü uşaq olmaqla 613 dinc sakini qətlə yetirilmişdir. Ondan artıq ölkə Xocalı soyqırımını tanımışdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir. Ermənistan isə təqribən 30 ildir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir. İşğalçı dövlət olan Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır.

Beynəlxalq hüquq normalarını kobud şəkildə pozan Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasəti aparır. Azərbaycan da daxil olmaqla, beynəlxalq ictimaiyyətin diqqətinin Beyrutdakı partlayışın fəsadlarının aradan qaldırılmasına yönəldiyi bir vaxtda, Ermənistan vəziyyətdən sui-istifadə edərək Azərbaycanın işğal olunmuş ərazilərinə erməni əsilli livanlıları yerləşdirməklə məşğuldur.

Qeyri-qanuni məskunlaşdırma 1949-cu ilin Cenevrə Konvensiyası daxil olmaqla, beynəlxalq hüququn ciddi pozulmasıdır. Bu, müharibə cinayətidir. Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz məskunlaşdırmanın hüquqi qüvvəsi ola bilməz.

Bugünkü Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni miras dağıdılmış və talan edilmişdir. Ermənistan işğal edilmiş ərazilərimizdə də Azərbaycanın tarixi və dini abidələrini dağıtmışdır. Məqsəd isə orada azərbaycanlıların bütün izlərini silməkdir.

Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz olaraq təbii ehtiyatları istismar edir və süni ekoloji böhran yaratmaq məqsədilə su

ehtiyatlarından istifadə edir. Azərbaycanın işğal altında olan ərazilərində qızıl və digər qiymətli metal və minerallar hasil edən Ermənistan onları beynəlxalq bazarlara ixrac edir. Bu, qanunsuz biznes fəaliyyəti və çirkli pulların yuyulması sxemidir.

Azərbaycanın təbii ehtiyatlarını qanunsuz istismar edən beynəlxalq şirkətlər qeyri-qanuni fəaliyyətlərini dərhal dayandırmadıqları halda onlar hüquqi məsuliyyətlə üzləşəcəklər. Azərbaycan işğal edilmiş ərazilərimizdə təbii ehtiyatlarımızın qanunsuz istismarı ilə məşğul olan şəxs və şirkətlərə qarşı artıq hüquqi addımlar atmağa başlayıb.

Ermənistan təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyu mülki vətəndaşları məqsədyönlü şəkildə hədəfə alır və təxribatlar törədir.

2016-cı ilin aprel ayında Ermənistan Azərbaycana qarşı genişmiqyaslı hərbi hücum həyata keçirmişdir. Həmin hücum nəticəsində biri uşaq olmaqla, 6 dinc sakin qətlə yetirilmiş, 26 mülki vətəndaş isə yaralanmışdır. Azərbaycan Silahlı Qüvvələri əks-hücum tədbirləri həyata keçirmiş və işğal olunmuş torpaqların bir hissəsini azad etmişdir.

2017-ci ildə Ermənistanın məqsədyönlü hücumu nəticəsində 2 yaşlı Zəhra Quliyeva və onun nənəsi qətlə yetirilmişdir.

2020-ci il iyulun 12-də Ermənistan dövlət sərhədi istiqamətində növbəti təxribata əl atmışdır. Azərbaycanın Tovuz rayonunun artilleriya atəşinə tutulması nəticəsində hərbçilərimiz və 76 yaşlı mülki vətəndaşımız həlak olmuş, mülki infrastruktura isə ciddi zərər dəymişdir.

Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaqdan ibarət idi. Bununla yanaşı, onlar Ermənistanda artmaqda olan iqtisadi-sosial problemlərdən xalqın diqqətini yayındırmağa çalışdılar.

Lakin Azərbaycanın cavabı qətiyyətli oldu və Ermənistan heç bir məqsədinə nail ola bilmədi. Ermənistan növbəti dəfə hərbi məğlubiyyətə uğradı. Ermənistan hərbi dəstək üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etməklə məğlubiyyətini etiraf etmiş oldu.

Bu yaxınlarda erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd etmişdir. 2020-ci il avqustun 23-də həmin dəstənin başçısı azərbaycanlı hərbçilər tərəfindən yaxalanmışdır. O, dəstənin azərbaycanlı hərbçi və mülki vətəndaşlara qarşı terror aktlarının planlaşdırdığını etiraf etmişdir.

Ermənistan hökuməti Azərbaycan tərəfinin əsirlərin "hamının-hamıya" prinsipi əsasında mübadiləsi təklifini rədd etmişdir. Azərbaycanlı mülki vətəndaşlar Dilqəm Əsgərov və Şahbaz Quliyev işğal altındakı ərazilərdə valideynlərinin məzarlarını ziyarət edərkən əsir götürülmüş və işgəncəyə məruz qalmışlar. Onlar 6 ildən çoxdur ki, əsirlikdədirlər.

Cari ilin mart ayında Azərbaycanın işğal olunmuş torpaqlarında təşkil edilmiş qondarma "seçkilər" növbəti təxribat idi. Həmin dırnaqarası "seçkilər" əvvəlkilər kimi, beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlığı Təşkilatı, Avropa İttifaqı, Avropa Parlamenti və digərləri tərəfindən kəskin şəkildə qınanıldı və rədd edildi.

Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğu regional sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən sülh prosesini pozmağa cəhd edir. Ermənistanın məqsədi işğalla bağlı hazırkı status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaqdır. Azərbaycanın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistanın baş naziri məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. Onun qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir. Bizim sülhə nail olmaq üçün yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır.

Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək onminlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Ermənistanın müdafiə naziri "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırır. Ermənistan Azərbaycanın böyük şəhərlərinə və mühüm mülki infrastrukturuna - Mingəçevir su anbarı və Bakının yaxınlığında yerləşən dünyanın ən iri neft-qaz terminallarından biri olan və onlarla dövlətin enerji təhlükəsizliyini təmin edən Səngəçal terminalına zərbə endirməklə hədələyir.

Ermənistan müxtəlif ölkələrdən muzdlular və terrorçular cəlb edir, onları Azərbaycana qarşı istifadə edir. Ermənistan terrorçuluğa sponsorluq edən ölkədir. Ermənistan Azərbaycana qarşı 30-dan artıq terror aktı törədib. Bizdə erməni ASALA terror təşkilatının işğal edilmiş ərazilərimizdə olması ilə bağlı etibarlı məlumatlar var.

Erməni terrorçuları 24 türk diplomatını qətlə yetirib. Paris şəhərinin Orli hava limanında terror aktı törədərək müxtəlif ölkələrin vətəndaşlarını qətlə yetirən ASALA terror təşkilatının Varujan Karapetyan adlı üzvü daha sonra Ermənistana ekstradisiya olunmuş və Ermənistan prezidenti tərəfindən əfv edilmişdir. Həmin terrorçu Ermənistanda qəhrəman kimi qəbul edilir.

Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub.

Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde "milli qəhrəmana" çevrilib. İkinci Dünya müharibəsindən sonra o, həbs olunaraq 25 illik azadlıqdan məhrum edilmiş və həbsxanada ölmüşdür. Ermənistanın paytaxtının mərkəzində Njdenin xatirəsinə 6 metrlik abidə ucaldılıb. ASALA kimi bir sıra digər terror təşkilatlarının üzvləri də bu ölkədə şöhrətləndirilir.

Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik.

Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Təəssüf ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyəti heç bir nəticə verməmişdir. Danışıqlar imitasiya naminə aparılmamalı, nəticəyönümlü və məzmunlu olmalıdır.

ATƏT-in Minsk qrupunun həmsədr ölkələri - Rusiya, Fransa və ABŞ prezidentlərinin bəyanatlarında status-kvonun qəbuledilməz olduğu vurğulanmışdır. Biz həmin bəyanatları alqışlayırıq, lakin bəyanatlar kifayət etmir. Bizim real addımlara ehtiyacımız var.

Otuz ilə yaxın danışıqlar prosesində iştirakımız sülhə sadiqliyimizin bariz nümunəsidir. ATƏT-in Minsk qrupunun bütün 11 üzvü prosesdə fəal iştirak etməlidir.

BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsinə əsasən, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasının yenilənmiş zaman qrafiki tərtib edilməlidir. BMT-nin müvafiq təsisatları BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına və azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasına töhfə verməlidir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin vaxt məhdudiyyəti yoxdur. Həmin qətnamələr icra edilənə qədər qüvvədədir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin təhrif olunması isə qəbuledilməzdir.

Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir. Dağlıq Qarabağ qədim və tarixi Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır!

Biz Ermənistana artmaqda olan silah təchizatından ciddi narahatıq. Xüsusilə də Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistan tərəfindən törədilmiş hərbi təxribatdan sonra. Dövlət sərhədindəki toqquşmaların qaynar fazası iyulun 16-da sona çatmışdır. Növbəti gün - iyulun 17-dən etibarən sentyabr ayına qədər biz hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşınmasının şahidi olduq. Ermənistanın dünyanın ən yoxsul ölkələrindən biri olduğunu və silahlara milyardlarla dollar xərcləmək imkanına malik olmadığını nəzərə alsaq, silahların ona pulsuz verildiyi qənaətinə gələ bilərik.

Etnik təmizləmə aparmış işğalçı ölkənin silahlarla təchiz edilməsi sülh danışıqlarını ciddi şəkildə sarsıdır və işğalçı dövləti yeni hərbi təxribatlara əl atmağa həvəsləndirir. Bu mənada biz bütün ölkələri Ermənistana silah təchizatından çəkinməyə çağırırıq.

Azərbaycana qarşı təcavüz səbəbindən Ermənistan dərin demoqrafik, sosial və iqtisadi böhranla qarşılaşmaqda davam edir. Ermənistanda iki il bundan əvvəl rejim dəyişikliyi baş vermişdir, lakin uğursuz dövlətin faşist ideologiyası dəyişməz olaraq qalmışdır.

Ermənistanda insan hüquqları geniş şəkildə pozulur. Hakimlər təzyiq və şantaja məruz qalır, jurnalistlər, müxalifət fəalları və siyasi opponentlər despotik rejim tərəfindən həbs edilir. Ermənistanda faktiki olaraq diktatura qurulub.

Ölkənin iki sabiq prezidentinə qarşı cinayət işləri açılıb. Toxunulmazlığa sahib olmaqlarına baxmayaraq, parlament deputatları saxlanılır.

Erməni jurnalist və siyasətçi Mher Yeqizaryan 2019-cu ilin yanvar ayında həbsxanada elan etdiyi aclıq nəticəsində ölmüşdür. Lakin vəzifələri dünyada demokratiya və insan hüquqlarının müşahidə edilməsindən ibarət olan beynəlxalq təşkilatlar buna reaksiya verməmişdir. "Human Rights Watch", "Amnesty International", "Freedom House" və digərləri Ermənistandakı despotik rejimin zorakı və qeyri-insani hərəkətlərinə göz yumurlar. Buna səbəb dünyada insan haqları ilə məşğul olan bir çox dırnaqarası qeyri-hökumət təşkilatlarına sponsorluq edən Sorosun Paşinyan rejimini də maliyyələşdirməsi və dəstəkləməsi ola bilər.

Bu ölkədə siyasi münasibətlər böhran həddinə çatmışdır. Ölkə 20 ildən artıq idi ki, səhra komandirləri tərəfindən idarə olunurdu. Hazırkı siyasi rəhbərlik isə əvvəlki rejimlərin təcrübəsini davam etdirir. Azərbaycana qarşı hərbi təcavüzün nəticələri aradan qaldırılmayana qədər Ermənistan inkişaf perspektivlərindən məhrum qalacaqdır.

Azərbaycan tərəfindən irəli sürülmüş və BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr olunmuş Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünə qarşı çıxış edən yeganə dövlət Ermənistan olmuşdur. Halbuki Ermənistanda koronavirusla bağlı vəziyyət çox acınacaqlıdır. Ermənistan bu təşəbbüsün əleyhinə yalnız onun Azərbaycan tərəfindən irəli sürüldüyünə görə çıxış etmişdir. Belə bir təşəbbüsə etiraz irrasional düşüncənin məhsuludur. Bu, Ermənistanda hökm sürən və hökumət tərəfindən təşviq edilən Azərbaycanofobiyanın növbəti təzahürüdür. Ermənistanda gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır.

Ermənistanın işğalının səbəb olduğu çətinliklərə baxmayaraq, Azərbaycan sabit, müasir, demokratik və multikultural dövlət yaratmağa müvəffəq olmuşdur. Demokratiyanın inkişafı və insan hüquqlarının qorunması hökumətimizin başlıca prioritetləri sırasındadır. Bütün fundamental hüquqlar, o cümlədən ifadə azadlığı, media azadlığı, toplaşma azadlığı, dini etiqad azadlığı və vətəndaş cəmiyyətinin inkişafı tam şəkildə təmin edilir. Bir neçə ay əvvəl biz geniş siyasi dialoq təşəbbüsünü başlatmışıq. Bütün əsas siyasi partiyalar həmin təşəbbüsü dəstəkləyib. Uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafına xidmət edəcək.

Son 17 ildə Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul 3 dəfə artmışdır. Ötən 17 il ərzində Azərbaycanda yoxsulluq 49 faizdən 5 faizə enmişdir. Son 17 ildə ölkəmizdə 3700-dən artıq məktəb yenidən tikilmiş və ya əsaslı təmir edilmişdir. Ölkəmizdə savadlılıq səviyyəsi 100 faizə yaxındır. "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrasında böyük tərəqqi əldə etmiş Azərbaycan qısa vaxt ərzində BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir. "2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı"nda yer almış "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə, Azərbaycan 166 ölkə arasında 54-cü yerdədir.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrində fəal iştirak edir, Avrasiyanın mühüm və etibarlı nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib. Biz Bakı-Tbilisi-Qars dəmir yolu və 25 milyon ton yükaşırma qabiliyyətinə malik Bakı Beynəlxalq Dəniz Ticarət Limanını istifadəyə vermişik. Davos İqtisadi Forumunun 2019-cu il üçün dərc etdiyi "Qlobal Rəqabətlilik İndeksi"nə görə Azərbaycan dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 141 ölkə arasında 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanı xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyətinə görə 27-ci yerdədir.

Azərbaycan beynəlxalq kosmik klubun üzvüdür. Bizim 3 peykimiz var - ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi üçün. Əhalimizin 80 faizi internet istifadəçisidir.

Biz iqlim dəyişikliyi səbəbindən yaranmış içməli su qıtlığı probleminin həlli üçün səmərəli tədbirlər həyata keçiririk. Azərbaycan Paris Sazişini ratifikasiya etmiş, baza ili - 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı öz üzərinə könüllü öhdəlik götürmüşdür. Azərbaycanda elektrik enerjisinin istehsalı üçün ekoloji cəhətdən təmiz təbii qaz və hidroelektrik enerji stansiyalarından istifadə olunur.

Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Biz dünyaya dözümlülük və birgəyaşayış nümunəsini təqdim edirik. 2008-ci ildə Azərbaycan tərəfindən başladılmış "Bakı Prosesi" müsəlman dünyası və Avropa arasında dialoq və əməkdaşlığın möhkəmləndirilməsi məqsədini daşıyır, həmçinin BMT tərəfindən dəstəklənir. İki ildən bir Azərbaycanda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT Baş Assambleyasının qətnamələri ilə "mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma" kimi tanınmışdır.

2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Azərbaycanda keçirilmişdir. Bundan əlavə, Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarına və 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişdir. Həmin idman yarışları da mədəniyyətlərarası dialoqa mühüm töhfə olmuşdur.

2016-cı ildə Roma Papası Azərbaycana səfər etmişdir. Bu ilin fevral ayında mənim Vatikana səfərim baş tutmuş və orada Papa Fransisklə görüşüm olmuşdur. Görüş zamanı Papa Fransisk Azərbaycanı "əsl tolerantlıq nümunəsi" adlandırmışdır.

Azərbaycan dini abidələrin - məscid, kilsə və sinaqoqların bərpasına çox böyük önəm verir. Biz müxtəlif ölkələrdə belə dini və tarixi abidələrin bərpası ilə bağlı birgə layihələr həyata keçirmişik.

Koronavirus pandemiyası dünyadakı vəziyyəti kökündən dəyişmiş, nəticədə yeni reallıqlar meydana gəlmişdir. İlkin olaraq virusun inkişafda olan ölkələrə təsir edəcəyi gözlənilirdi. Lakin pandemiya inkişaf etmiş ölkələrə də ciddi təsir etmişdir. Bu, virusun sərhəd tanımadığını bir daha sübut edir. Biz pandemiyanın öhdəsindən yalnız qarşılıqlı dəstək və birgə səylərlə gələ bilərik.

Azərbaycan virusun yayılmasının qarşısını almaq üçün zamanında zəruri addımlar atmışdır. Azərbaycan tərəfindən "Minilliyin İnkişaf Məqsədləri"nə nail olunması və "Dayanıqlı İnkişaf Məqsədləri" istiqamətində əldə edilmiş tərəqqi ona pandemiya ilə səmərəli mübarizə aparmağa imkan vermişdir. Azərbaycanda səhiyyə infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmiş və yenidən qurulmuşdur, son 17 ildə 700-ə yaxın xəstəxana yenidən tikilmiş və ya əsaslı təmir edilmişdir.

Görülmüş tədbirlər nəticəsində ölkədə COVID-19 ilə bağlı vəziyyət nəzarət altındadır. Pandemiyanın iqtisadi çətinliklərinə baxmayaraq, vətəndaşlarımızın həyatı və sağlamlığı bizim üçün prioritet təşkil edir. İqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlılığının təmin olunması, habelə işsizliklə bağlı məsələlərin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim edilmişdir. Sosial dəstək tədbirləri təqribən 5 milyon vətəndaşı, yəni, ölkə əhalisinin yarısını əhatə edir.

Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Biz iki bərabər transla Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə töhfələri etmişik. İkinci tranş Qoşulmama Hərəkatına üzv dövlətlər üçün nəzərdə tutulub. Azərbaycan koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Azərbaycan Respublikası 2016-cı ildə 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatının sədri seçilmişdir. 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində Bakıda keçirilmiş XVIII Zirvə toplantısında Azərbaycan sədrliyi öz üzərinə götürmüşdür. Zirvə toplantısındakı çıxışımda qeyd etdiyim kimi, Azərbaycan Qoşulmama Hərəkatının üzvlərinin mənafelərinin qorunması naminə əlindən gələni edəcəkdir. Azərbaycan ədaləti və beynəlxalq hüququ müdafiə edəcəkdir.

Təşəbbüsümüz əsasında 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının koronavirusa qarşı videoformatda Fövqəladə Zirvə görüşü keçirildi. Mən Zirvə görüşündə Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə üzrə dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdim. Bu təşəbbüs BMT-nin üzvü olan 130-dan çox ölkə tərəfindən dəstəkləndi.

Hesab edirəm ki, Xüsusi Sessiya pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaq və onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir.

Beynəlxalq sülh və təhlükəsizlik, pandemiyanın dünya dövlətlərinə təsiri ölkələr arasında həmrəylik tələb edir. Bu mənada mən bir neçə təklif irəli sürmək istəyirəm:

- Pandemiyadan sonrakı dövrdə beynəlxalq təşkilatlar çərçivəsində islahatların aparılması vacibdir və bu, zamanın tələbədir. Bu baxımdan BMT-nin qlobal səviyyədə rolunun və nüfuzunun artırılmasına, onun müasir dövrün çağırışlarına daha adekvat cavab vermək imkanına xüsusi diqqət yetirilməlidir;

- Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmaması BMT-nin nüfuzunu sarsıdır. Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizmləri yaradılmalıdır;

- Pandemiya dövründə qaçqın və məcburi köçkünlər ən həssas qrupa çevrilmişlər. Həmin həssas qrupa daxil olanların təhlükəsiz qaydada və ləyaqətli şəkildə doğma torpaqlarına qaytarılması məsələsinin aktuallığı artır;

- Vaksinin əlçatanlığı və ədalətli paylanılmasının təmin edilməsi əhəmiyyətli məsələdir və ən az inkişaf etmiş ölkələr onu pulsuz əldə etməlidir. Bu baxımdan burada əlavə nəzarət mexanizmləri yaradılmalıdır;

- Müxtəlif ölkələr tərəfindən "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrasına pandemiyanın mənfi təsirinin əhatə dairəsi diqqətlə təhlil edilməli və həll yolları müəyyən olunmalıdır.

Dövlət Gömrük Komitəsinin yeni layihəsi ictimaiyyətə təqdim olunub

Sentyabrın 24-də Dövlət Gömrük Komitəsində "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" layihəsinin təqdimatı keçirilib.

Tədbirdə Dövlət Gömrük Komitəsinin aidiyyəti qurumlarının rəhbərləri və media nümayəndələri iştirak edib.

Komitə Katibliyinin rəisi Anar Süleymanov layihə barədə məlumat verib və bildirib ki, Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı, biznes mühitinin yaxşılaşdırılması və təkmilləşdirilməsi, tranzit və logistika imkanlarının genişləndirilməsi, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi məqsədilə atdığı addımlar çərçivəsində gömrük sistemində də islahatlar aparılır.

Qeyd olunub ki, gömrük qanunvericiliyinin təkmilləşdirilməsi, sərhədkeçmə proseslərinin sürətləndirilməsi, infrastrukturun yenidən qurulması, kadr və struktur islahatları ilə yanaşı, Ümumdünya Gömrük Təşkilatının gündəliyindəki qlobal çağırışların Azərbaycanda reallaşdırılması zərurəti təqdim edilən layihənin tətbiqini aktuallaşdırıb.

Anar Süleymanov "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" layihəsinin "kölgə iqtisadiyyatı"nın aradan qaldırılmasında, xidmət səviyyəsinin yüksəldilməsində də mühüm rol oynayacağını vurğulayıb.

Sonra layihənin ictimaiyyətə tanıdılması məqsədilə hazırlanan videoçarx nümayiş etdirilib.

DGK Rəqəmsal Gömrük İnzibatçılığı İdarəsinin rəisi Rauf Quliyev çıxış edərək "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" layihəsi barədə məlumat verib.

Bildirilib ki, Azərbaycan gömrük xidməti mütəxəssislərinin hazırladığı layihə mobil və veb formatda fəaliyyət göstərəcək. Bu yenilikdən faydalanmaq üçün şəxslərin mobil telefon və ya kompüterə yüklədiyi "Smart customs" tətbiqi vasitəsilə asan loginlə qeydiyyatdan keçərək şəxsi kabinet yaratması kifayətdir.

Sifarişin məbləği və miqdarı qanunvericilikdə nəzərdə tutulan limiti keçdiyi zaman müvafiq gömrük ödənişləri əvvəlcədən elektron qaydada həyata keçirilərsə, bu halda gömrük orqanına gəlməyə ehtiyac yoxdur. Belə ki, sifariş edilən bağlama maneəsiz olaraq birbaşa qeyd olunan ünvana çatdırılacaq.

Bütün prosesləri internetə çıxışı olan istənilən məkanda kompüter və ya mobil telefon üzərindən həyata keçirmək mümkündür.

Diqqətə çatdırılıb ki, əvvəllər xaricdən edilən sifarişin məbləği və miqdarı qanunvericilikdə nəzərdə tutulan limitdən çox olduğu halda şəxslər gömrük orqanına getməli, yazılı formada bəyannamə təqdim edərək bir neçə proseduru həyata keçirməli idi.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

Onu da qeyd edək ki, yeni layihə elektron ticarətin daha şəffaf və sürətli şəkildə həyata keçirilməsinə, xidmət səviyyəsinin yüksəldilməsinə, vaxt itkisinin aradan qaldırılmasına, şəffaflığın təmin olunmasına, gömrük statistikasının düzgün qurulmasına, mövcud resurslardan səmərəli şəkildə istifadə edilməsinə şərait yaradacaq.

Beynəlxalq poçt göndərişləri və ya daşıyıcı şirkət vasitəsilə xaricdən mal gətirən fiziki şəxslər artıq gömrük orqanına gəlməyəcək, gömrük əməkdaşı ilə təmasda olmadan bütün gömrük əməliyyatlarını həyata keçirə biləcək.

Dövlət Gömrük Komitəsi gələcəkdə "Smart customs" tətbiqi vasitəsilə xarici ticarət iştirakçıları üçün yeni xidmətlərin istifadəyə verilməsini də planlaşdırır.

Beləliklə, qanunun qüvvəyə mindiyi gündən beynəlxalq poçt göndərişləri və daşıyıcı şirkətlər vasitəsilə sifariş edilən bağlamalar "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" tətbiqi vasitəsilə gömrük orqanına bəyan olunmalıdır.

Onu da qeyd edək ki, qanunun qüvvəyə mindiyi gündən etibarən beynəlxalq poçt göndərişləri və daşıyıcı şirkətlər vasitəsilə sifariş edilən bağlamalar "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" tətbiqi vasitəsilə gömrük orqanına bəyan olunmalıdır.

The State Customs Committee presents new project

Presentation of the "Simplified Declaration - E-Commerce" project was held at the State Customs Committee on September 24.

The event was attended by the heads of appropriate bodies of the State Customs Committee and media representatives.

Chief of the Committee's Secretariat Anar Suleymanov gave information about the project and said that reforms were being carried out in the customs system as part of the steps taken by President Ilham Aliyev to achieve sustainable and dynamic development of the country's economy, improve business environment, enhance transit and logistic capabilities, ensure facilitated international trade.

It was noted that along with the improvement of customs legislation, acceleration of border crossing processes, reconstruction of infrastructure, personnel and structural reforms, the need to realize global challenges on the agenda of the World Customs Organization in Azerbaijan had highlighted the implementation of the project.

Anar Suleymanov underlined that the "Simplified Declaration - E-Commerce" project would play an important role in eliminating the "shadow economy", upgrading the service.

Then, a video made to promote the project was screened.

Addressing the event, chief of the Digital Customs Administration Department of the State Customs Committee Rauf Guliyev gave information about the "Simplified Declaration - E-Commerce" project.

It was said that the project prepared by the experts of Azerbaijan's customs service would be available in mobile and web formats. In order to take advantage of this innovation, individuals are to create a personal account by signing in with Asan login via the Smart customs application downloaded to a mobile phone or computer.

If the amount and quantity of the order exceeds the limit provided by the legislation, in case the appropriate customs payments are made electronically in advance, there is no need to come to the customs body. Thus, the ordered package will be delivered directly to the specified address without any obstacles.

All processes can be carried out via a computer or mobile phone in any place with access to the Internet.

It was noted that previously, if the amount and quantity of orders from abroad exceeded the limits provided by the law, individuals had to go to the customs body, submit a written declaration and carry out several procedures.

Then, journalists' questions were answered.

It should be noted that the new project will create

conditions for ensuring more transparent and faster e-commerce, upgrading the service, eliminating the waste of time, ensuring transparency, specified customs statistics, using the existing resources efficiently.

Individuals who import goods through international mail deliveries or carrier companies will no longer be able to come to the customs body and will be able to perform all customs operations without contacting a customs officer.

The State Customs Committee also plans to launch new services for foreign trade participants via Smart customs application.

It should be noted that from the date of the enactment of the law, parcels ordered through international postal deliveries and carrier companies must be declared to the customs body through the "Simplified Declaration - E-Commerce" application.

Press and Public Affairs Department of the State Customs Committee

Tütün və tibbi məmulatları gizlətmək cəhdi baş tutmadı

Şimal Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları ölkə ərazisinə xeyli miqdarda tütün və tibbi məmulatların qanunsuz yolla gətirilməsi cəhdinin qarşısını alıblar.

İdarənin Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, "Samur" gömrük postuna Rusiya Federasiyasından daxil olan Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "MAN" markalı yük avtomobili saxlanılıb.

Baxış zamanı həmin avtomobilin kabinəsində cihazlar panelinin alt hissəsində olan boşluqda gömrük nəzarətindən gizlədilmiş, sürücü oturacağının üst hissəsində olan çəkməcədə və avtomobilin qoşqusunda əşyalar qoymaq üçün nəzərdə tutulmuş sandıqda gömrük nəzarətinə bəyan olunmayan 800 ədəd xarici markalı siqaret, 80 ədəd papiros, 20 ampul və 90 həb müxtəlif adda dərman preparatları, 30 ədəd kosmetik vasitələr, 2773 ədəd stomatoloji məhsullar, 20960 ədəd tibbi ləvazimatlar, 162 ədəd metal qıfıl aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.

Kosmetik vasitələrin arasında gizlədilən tibbi məmulatlar aşkara çıxarıldı

Bakı Baş Gömrük İdarəsinin "İpək Yolu" gömrük postunda İran İslam Respublikasından ayrı-ayrı şəxslərə məxsus yükləri daşıyan 42-BL-556/42-ZA-456 nömrə nişanlı yük avtomobilinə rentgen qurğusu ilə baxış keçirilib.

Yoxlama zamanı rentgen qurğusunun monitorunda şübhəli cizgilər müşahidə edilib. Bu səbəbdən malların hər birinin fiziki yoxlanılması qərara alınıb.

Təkrar baxış zamanı avtomobilin yarımqoşqusunda daşınan "kosmetik vasitə" yüklərinin arasında malların aşkar edilməsini çətinləşdirən üsullardan istifadə etməklə gizlədilən 2942 ədəd müxtəlif adda tibbi təyinatlı gel, 18 qutu həb şəkilli və 10 ədəd flakonda maye halında olmaqla müxtəlif adda dərman vasitələri aşkar edilib.

Qeyd olunan malların Azərbaycan Respublikasının gömrük ərazisinə qanunsuz yollarla gətirilməsini təşkil edən şəxslərin müəyyən edilməsi istiqamətində əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

Siqaretlərin qanunsuz yolla gətirilməsinin qarşısı alınıb

Gömrük əməkdaşları iki fakt üzrə tütün məmulatlarının qanunsuz yolla ölkə ərazisinə gətirilməsi cəhdinin qarşısını alıblar.

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn "DAF" markalı iki yük avtomobili saxlanılıb.

Sorğu-sual zamanı həmin avtomobilləri idarə edən şəxslər nəqliyyat vasitələrində gömrük nəzarətindən gizlədilən və ya bəyan edilməyən hər hansı predmetin olmadığını bildiriblər.

Lakin kinoloji xidmət itlərinin tətbiqi ilə keçirilən yoxlama zamanı avtomobillərdə gömrük orqanlarına bəyan olunmayan 2200 ədəd "Marlboro Edge" markalı siqaretlər aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.

"Gömrük modernləşdirilməsi-məsləhətləşmə" layihəsi ilə bağlı onlayn iclas keçirilib

Sentyabrın 21-də Koreya Gömrük İdarəsinin "Gömrük modernləşdirilməsi - məsləhətləşmə" layihəsi ilə bağlı onlayn iclas keçirilib.

Tədbirdə Dövlət Gömrük Komitəsi Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin rəisi Təmkin Xəlilov, Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyev, Koreya Gömrük İdarəsi Yeni Texnologiyalar və Qlobal Layihələr departamentlərinin informasiya-kommunikasiya texnologiyaları üzrə məsləhətçiləri, eləcə də Komitənin aidiyyəti struktur bölmələrinin nümayəndələri iştirak edib.

İclasda sözügedən layihə müzakirə olunub, gələcək əməkdaşlıq imkanları araşdırılıb.

Koreya Gömrük İdarəsi Yeni Texnologiyalar Departamentinin informasiya-kommunikasiya texnologiyaları üzrə məsləhətçisi Seungho Bae bildirib ki, Koreya gömrük xidməti hər il bu istiqamətdə layihə həyata keçirir, müxtəlif ölkələrin gömrük orqanlarının iş strukturlarının icra vəziyyətini analiz etməklə elektron gömrük sisteminin limiti haqqında diaqnoz verir və inkişaf yollarını göstərir.

Qeyd olunub ki, Koreyada 2022-ci ildə həyata keçiriləcək bu layihəyə Azərbaycan Respublikası da qatılmaq niyyətindədir və Azərbaycan ticarətin həcmi, gömrük mühiti və müxtəlif istiqamətlər nəzərə alınmaqla Koreya Gömrük İdarəsi tərəfindən namizəd ölkə olaraq seçilib.

Seungho Bae vurğulayıb ki, Koreya Gömrük İdarəsi şəffaflığı qorumaq məqsədilə bu işi dövlət orqanına deyil, informasiya-kommunikasiya texnologiyaları üzrə müstəqil mütəxəssislərdən ibarət qrupa həvalə edib və mütəxəssislər sentyabrın 14-dən başlayaraq bir ay müddətində araşdırma aparacaqlar. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində isə bununla bağlı sentyabrın 21-dən etibarən bir həftə müddətində onlayn müsahibələr təşkil ediləcək.

DGK Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin rəisi Təmkin Xəlilov Azərbaycan gömrük xidməti ilə əməkdaşlıq etdiklərinə görə Koreya Gömrük İdarəsi Yeni Texnologiyalar və Qlobal Layihələr departamentlərinin məsləhətçilərinə təşəkkürünü bildirib, Komitənin İKT sahəsində həyata keçirdiyi yeniliklərlə bağlı məlumat verib.

Baş İdarənin rəisi Dövlət Gömrük Komitəsində informasiya və kommunikasiya texnologiyaları üzrə layihələrin əsas strateji istiqamətlərdən biri olduğunu, son illər bu istiqamətdə müxtəlif işlərə imza atıldığını diqqətə çatdırıb. Qeyd edilib ki, gömrük prosedurlarının sadələşdirilməsi, ticarətin asanlaşdırılması, elektron gömrük bəyannaməsinin təqdim edilməsi - kağızsız texnologiyaların tətbiqi əsas istiqamətlərdəndir.

Təmkin Xəlilov Azərbaycanda Elektron Hökumətin əsas fəaliyyət prinsipləri və əhəmiyyəti haqqında da məlumat verib, hazırda Elektron Hökumət Portalında Dövlət Gömrük Komitəsinin 16 xidmət təqdim etdiyini, eyni zamanda Komitənin 14 dövlət qurumu ilə informasiya mübadiləsi həyata keçirdiyini bildirib.

Daha sonra gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (VAİS) daha da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən, VAİS-də tətbiq olunan son yeniliklərdən danışılıb, Komitənin gələcəkdə İKT sahəsində yeni layihələrin həyata keçirilməsində maraqlı olduğu diqqətə çatdırılıb.

İclasın sonunda Dövlət Gömrük Komitəsinin rəsmiləri qarşı tərəfin suallarını cavablandırıb.

Online meeting held on customs modernization-consulting project

On September 21, Korea's Customs Service held an online meeting on the customs modernization - consulting project.

Chief of the Main Department for Technological Innovations and Statistics of the State Customs Committee Tamkin Khalilov, chief of the International Cooperation Department Dilaver Ferzeliyev, ICT advisors of the New Technologies and Global Projects departments of Korea's Customs Service, as well as representatives of structural units of the Committee attended the event.

The above-mentioned project was discussed, opportunities of future cooperation were studied during the meeting.

ICT advisor of the New Technologies Department of Korea's Customs Service Seungho Bae said Korean customs service implements a project in this regard every year, makes diagnosis on the limit of customs system and outlines directions of development by analysing the state of implementation of structures of the customs bodies of different countries

It was said that the Republic of Azerbaijan intended to join the project to be implemented in Korea in 2022 and taking into account the volume of trade, customs environment and different directions Azerbaijan had been chosen by Korea's Customs Service as a candidate country.

Seungho Bae underlined that with the view of ensuring transparency, Korea's Customs Service had entrusted this job to a group of independent experts on information and communication technologies, not to a state body and beginning from September 14, the experts would conduct a study within a month. Beginning from September 21, the State Customs Committee of the Republic of Azerbaijan will organize online interviews with this regard within a week.

Chief of the Main Department for Technological Innovations and Statistics of the State Customs Committee Tamkin Khalilov thanked the advisors of the New Technologies and Global Projects departments of Korea's Customs Service for cooperating with Azerbaijan's customs service, gave information about the innovations realized by the Committee in the sphere of ICT.

Chief of the Main Department said projects on ICT are among the major strategic directions at the State Customs Committee, noted that various activities had been carried out over the recent years.

It was said that simplification of customs procedures, trade facilitation, presentation of e-customs declaration - application of paperless technologies were major directions.

Tamkin Khalilov also gave information about the major activity principles of the e-government in Azerbaijan, said the State Customs Committee was offering 16 services through the e-government portal, the Committee was exchanging information with 14 government agencies.

Then, information was given about the measures taken to further improve Common Automated Management System, innovations applied in the system, it was said that the Committee was interested in implementing new projects in the sphere of ICT.

At the end of the meeting, officials of the State Customs Committee answered questions.

Könüllü gömrükçülər fəaliyyətlərini onlayn rejimdə davam etdirirlər

Bu il fevralın sonundan etibarən koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılması ilə əlaqədar Dövlət Gömrük Komitəsi tərəfindən "Könüllü gömrükçü" dəstəsinin fəaliyyətinin müvəqqəti olaraq dayandırılmasına qərar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çağırışına cavab olaraq, koronavirus (COVID-19) infeksiyasının ölkəmizdə yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə dövlət tərəfindən atılan bütün zəruri addımlara, xüsusilə əhalinin maarifləndirilməsi və qayğıya ehtiyacı olan insanlara sosial xidmətlərin göstərilməsi istiqamətində həyata keçirilən tədbirlərə töhfə vermək məqsədilə könüllü hərəkat və təşkilatlarının təşəbbüsü ilə Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi təsis edilib.

Artıq Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi Azərbaycan Könüllü Təşkilatları İttifaqına (AKTİ) çevrilib. Bu təşkilatda "Könüllü gömrükçü" dəstəsinin də təmsil olunması qurumumuzun könüllülərinin fəaliyyətlərinə verilən dəyərin göstəricisidir.

Bununla yanaşı, sosial məsafənin, onlayn idarəetmənin reallığa çevrildiyi bu günlərdə "Könüllü gömrükçü" dəstəsinin üzvlərinin gömrük orqanlarına yaxınlaşmadan, yaşadıqları regionu tərk etmədən, evdən çıxmadan könüllü kimi fəaliyyətlərini davam etdirmələrini, gömrük işini yaxından öyrənmələrini, asudə vaxtlarını dəyərləndirmələrini təmin etmək məqsədilə könüllü gömrükçülərin onlayn rejimdə fəaliyyətləri təşkil edilib və bu münasibətlə Dövlət Gömrük Komitəsində görüş keçirilib.

Komitənin Sosial İnnovasiyalar və Analitik Təhlil İdarəsinin rəisi, "Könüllü gömrükçü" dəstəsinin rəhbəri Vüqar Əliyev gəncləri fəaliyyətin gələcək istiqamətləri və pandemiyanın şərtlərinə uyğun olaraq qurulması barədə məlumatlandırıb.

Hazırda könüllülər gömrük işi sahəsində bilik və bacarıqlarının artırılması istiqamətində davamlılığın təmin edilməsi məqsədilə təhkim olunduqları idarələrin əməkdaşları ilə onlayn qaydada əlaqə yaratmaq, müvafiq məlumat və tədris vəsaitlərini əldə etmək, qarşılaşdıqları suallara cavab tapmaq imkanına malikdirlər.

Eyni zamanda, cəmiyyətin məlumatlandırılmasında, gömrük işi sahəsində yeniliklərin təbliğində mühüm rol oynayan könüllülər bu fəaliyyətlərini də onlayn qaydada davam etdirirlər.

Qaçaqmalçılıq hallarına qarşı mübarizə tədbirləri davam edir

Azərbaycan gömrük orqanları gömrük hüquqpozmalarına, eləcə də qaçaqmalçılıq hallarına qarşı mübarizə tədbirlərini davam etdirir.

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan idarə etdiyi "QAZ-31029" markalı avtomobillə gələn Azərbaycan Respublikasının vətəndaşı saxlanılıb. Sorğu-sual zamanı o, idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirsə də, kinoloji xidmət itinin reaksiyası nəticəsində avtomobilin motorxanasında üzərində "Enigma" yazılan 490 ədəd pirotexniki vasitə aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Mazımçay" gömrük postunda Gürcüstandan idarə etdiyi "VAZ-21074" markalı avtomobillə gələn Azərbaycan Respublikasının vətəndaşı saxlanılıb. Sorğu-sual zamanı o, üzərində və idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən, bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Gömrük baxışı nəticəsində isə avtomobilin ön oturacaqlarının arasında - əl əyləcinin yanında 1 ədəd kağız bükümdə təqribi çəkisi 2 qram olan narkotik vasitə - marixuana bitkisi aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "VAZ-21074" markalı nəqliyyat vasitəsi saxlanılıb. Sorğu-sual zamanı vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Kinoloji xidmət itinin reaksiyası nəticəsində isə nəqliyyat vasitəsinin arxa və ön oturacaqlarının altında 3000 ədəd "King" markalı siqaret aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Mazımçay" gömrük postunda Gürcüstandan idarə etdiyi "Volkswagen Sharan" markalı avtomobillə gələn həmin ölkə vətəndaşı saxlanılıb. Sorğu-sual zamanı sürücü idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Gömrük baxışı zamanı isə nəqliyyat vasitəsinin qapısında 1 ədəd kağıza bükülü, ümumi çəkisi 3 qram olan narkotik vasitə - marixuana aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan idarə etdiyi "Mercedes-Benz 350" markalı avtomobillə gələn Azərbaycan Respublikasının vətəndaşı saxlanılıb. Sorğu-sual zamanı sürücü idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Yoxlama zamanı nəqliyyat vasitəsinin salonunda, oturacağın arxa hissəsində və yük yerində gömrük nəzarətindən gizlədilən üzərində "Cracker K020" yazılan 105600 ədəd pirotexniki vasitə aşkar olunub.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan ölkəmizə idarə etdiyi "VAZ-21074" markalı avtomobillə gələn Azərbaycan Respublikasının vətəndaşı saxlanılıb. Sorğu-sual zamanı o, idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirsə də, kinoloji xidmət itinin reaksiyası nəticəsində avtomobilin arxa və ön qapılarının içərisində ümumilikdə 30120 ədəd üzərlərində "Petards" və "Mega" yazılan pirotexniki vasitələr aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan idarə etdiyi "Lincoln Mercury" markalı avtomobillə gələn Azərbaycan Respublikasının vətəndaşı saxlanılıb. Sorğu-sual zamanı o, idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Yoxlama zamanı isə avtomobilin baqaj hissəsində - döşəmə ilə benzin çəninin arasındakı boşluqda 16 ədəd 1 litrlik "Nemiroff Original" adlı spirtli içki və 3 qutu "Sony PS4" oyun konsolu aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan idarə etdiyi "Mercedes-Benz C200" markalı avtomobillə gələn Azərbaycan Respublikasının vətəndaşı saxlanılıb. Sorğu-sual zamanı o, idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Lakin yoxlama zamanı avtomobilin oturacaqlarının içərisində 6 ədəd "Samsung Galaxy A10S" markalı mobil telefon aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan idarə etdiyi "VAZ-21099" markalı avtomobillə gələn Azərbaycan Respublikasının vətəndaşı saxlanılıb. Sorğu-sual zamanı o, idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Yoxlama zamanı isə avtomobilin salonunda - yan örtüklərin içərisində üzərində "Bird Egg Cracker" yazılan 4500 ədəd pirotexniki vasitə aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn həmin ölkə vətəndaşının idarə etdiyi "Mercedez-Benz Travego 15 SHD" markalı sərnişin avtobusu saxlanılıb. Sorğu-sual zamanı vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirsə də, baxış zamanı avtobusun yük yerində 4 ədəd 1 litrlik "Nemiroff Original", 4 ədəd 1 litrlik "Nemiroff Delikat", 19 litr "Marani" markalı və 17 litr üzərində heç bir yazısı olmayan kustar üsulla hazırlanan spirtli içki, həmçinin 23 ədəd müxtəlif markalı işlənmiş avtomobil ehtiyat hissəsi aşkarlanıb.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan idarə etdiyi "QAZ-3102" markalı avtomobillə gələn Azərbaycan Respublikasının vətəndaşı saxlanılıb. Sorğu-sual zamanı sürücü idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Gömrük baxışı zamanı isə nəqliyyat vasitəsinin yük yerində 1064 ədəd üzərlərində "Mega Black Devil" və "Sky City 10 Shots" yazılan pirotexniki vasitələr aşkar edilib.

Bütün faktlarla bağlı araşdırma aparılır.

Информационно-аналитический обзор

Госдума приняла закон об обратном акцизе на сжиженный газ

Госдума приняла в третьем чтении инициированный правительством закон о внесении в Налоговый кодекс РФ изменений в части, применяемой при определении обратного акциза на сжиженные углеводородные газы (СУГ).

Для получения обратного акциза на СУГ компании должны ввести новые мощности по переработке СУГ с 1 января 2022 года - проектной мощностью по сырью не менее 300 тыс. т в год или обновить существующие производства. При этом компании необходимо заключить до 2022 г. соглашение с Минэнерго о модернизации мощностей, по которому нужно будет вложить в нее с 2021 по 2027 годы не менее 65 млрд руб., а в 2020 г. направить на переработку более 100 тыс. т СУГ. При этом в случае осуществления инвестиций в производственные мощности по переработке СУГ в размере более 110 млрд руб. законом предусмотрена ежегодная индексация ставки акциза на СУГ с 1 января 2024 года.

Предусмотрено уточнение применяемого при определении ставки налога на добычу нефти коэффициента, характеризующего динамику мировых цен на нефть, и показателя, характеризующего особенности добычи нефти, в случае, если их значение при ценах на нефть марки Urals ниже $15 США за баррель составило менее нуля.

Согласно расчетам правительства, возмещение из федерального бюджета, обусловленное применением обратного акциза в отношении этана, направляемого на переработку в продукцию нефтехимии, с повышающим коэффициентом оценивается в размере 4,3 млрд руб. в 2022 году, 12,1 млрд руб. в 2023 году, 36,6 млрд руб. в 2024 году. Возмещение из федерального бюджета, обусловленное применением с 1 января 2022 года обратного акциза на СУГ, составит в 2022 году порядка 10,4 млрд руб., в 2023 году - 14,5 млрд руб., в 2024 году - 15,5 млрд руб.

Закон корректирует определение средних дистиллятов, исключая из этого определения мазут в целях выравнивания налоговой нагрузки у производителей мазута и создания равных условий для его потребителей, в частности, использующих мазут для выработки электроэнергии или бункеровки судов.

ТАСС

В Россию вернутся три тысячи икон, которые пытались ввезти в Германию

Три тысячи российских икон, конфискованных немецкой таможней при попытке незаконного ввоза, вернутся на родину. Об этом 25 сентября сообщил начальник Национального центрального бюро (НЦБ) Интерпола МВД России генерал-майор полиции Александр Прокопчук. По его словам, сейчас этот вопрос решается по линии Минкульта и МИД России.

"Решение о возврате реликвий принято государственными органами ФРГ на основании вынесенного специалистами Минкультуры России при участии Интерпола экспертного заключения, которое подтвердило российское происхождение икон", - сказал Прокопчук в интервью ТАСС.

От отметил, что через Интерпол за последние 10 лет в Россию вернули свыше 250 предметов, представляющих историческую и культурную ценность.

www.tks.ru

100 кг сыра перемещалось из Польши на территорию ЕАЭС в партии товара «сантехническая арматура и трубы»

Гродненскими таможенниками выявлена попытка незаконного ввоза на территорию Евразийского экономического союза 100 кг сыра, скрытого среди сантехнической арматуры и других промышленных товаров.

Согласно представленным водителем документам, в транспортном средстве, следовавшем через пункт пропуска «Берестовица», перемещались фитинги, трубы и

сантехническая арматура. Вместе с тем, при проведении таможенного досмотра в грузовом отсеке большегруза обнаружено 100 кг сыра, скрытого в коробках среди промышленных товаров.

Сведения о сыре в документах, как и ветеринарный сертификат на него, у водителя отсутствовали. Также не были соблюдены особые условия перевозки молочных продуктов, соответственно транспортное средство с товаром возвращено на сопредельную территорию.

По выявленному факту Гродненской региональной таможней начат административный процесс в соответствии с ч.3 ст.14.5 КоАП Республики Беларусь, предусматривающей штраф в размере до 30% от стоимости незаконно перемещаемого товара.

www.customs.gov.by

Несырьевой неэнергетический экспорт предприятий столицы в Турцию вырос в три раза

Общий объем несырьевого неэнергетического экспорта предприятий Москвы в Турцию по итогам первого полугодия 2020 года превысил аналогичный показатель прошлого года в три раза. Об этом сообщает пресс-служба департамента предпринимательства и инновационного развития города Москвы со ссылкой на главу ведомства Алексея Фурсина.

"Общий объем поставок несырьевой

неэнергетической продукции Москвы в Турцию по итогам первого полугодия составил 687,2 миллиона рублей, что в три раза превышает аналогичный показатель прошлого года. Турция по итогам полугодия заняла шестое место по объему несырьевого неэнергетического экспорта из Москвы, уступив Великобритании, США, Казахстану, Белоруссии и Китаю", - сказал он.

Некоторые категории товаров показали многократный рост по сравнению с предыдущим периодом: экспорт полуфабрикатов металлов увеличился в 20,1 раза, а продуктов питания - в 20,7 раза. Значительную позитивную динамику продемонстрировали и отдельные виды товаров: продажи сладкого сухого печенья турецким потребителям выросли на 230%, макарон - на 93%, химических красителей - на 14%. Кроме того, в этом полугодии Турция возобновила импорт из Москвы необработанного золота, рафинированного сахара, грузовых судов, моторных лодок и спиртов.

С 10 по 12 ноября Московский экспортный центр для поддержки и развития экспорта Москвы в Турцию проведет бизнес-миссию в онлайн-формате с представителями этой страны. Свои предложения потенциальным покупателям представят 20 компаний Москвы из сферы услуг, информационных технологий, а также производства медицинских товаров, электроники и оборудования, продуктов питания и косметики.

www.tks.ru

Госдума приняла закон о росте акцизов на сигареты на 20%

В 2021 году ставки акцизов на табачную продукцию вырастут на 20% вместо плановых 4%. Такой закон приняла Госдума. В Минфине ожидают подорожание пачки сигарет на 20 рублей.

Ранее, в рамках второго чтения, этими поправками депутаты расширили другой законопроект - в редакции первого чтения он касался введения обратного акциза на этан и сжиженные углеводородные газы.

Согласно одобренному предложению кабмина, акцизы будут проиндексированы на 20% в 2021 году. Так, ставка акциза на сигареты и папиросы в 2021 году составит 2359 рублей за 1 тысячу штук, на вейпы и электронные сигареты - 60 рублей за штуку. Согласно поправкам в Налоговый кодекс, повысить акциз на 20% вместо 4% в 2021 году предлагается и на другие виды табачной продукции: на трубочный, курительный, жевательный, сосательный, нюхательный, кальянный табак - с 3,172 тысячи рублей за килограмм до 3,806 тысячи рублей.

А в 2022-2023 годах индексация для продукции этой категории произойдет на уровень инфляции по отношению к предыдущему году.

Российская газета

Кубанское вино впервые в истории будет экспортироваться в Финляндию

Губернатор Краснодарского края Вениамин Кондратьев 24 сентября сообщил журналистам о росте экспорта винодельческой продукции из региона, а также о том, что кубанское вино теперь будут поставлять в Финляндию.

"Кубанское вино продолжает расширять поставки в Европу. Мы сумели зайти на рынок Финляндии, в ближайшее время туда отправятся 2 тыс. л "Шато Тамань" Резерв Красностоп от винодельни "Кубань-Вино". За эту возможность боролись шесть виноделен края", - сказал Вениамин Кондратьев.

О возможности экспортировать кубанские вина делегация Краснодарского края вела переговоры во время поездки в Хельсинки в октябре 2019 года. Попасть на финский рынок сложно из-за процедуры закупок и государственной монополии на алкоголь крепче 5,5 градусов. Однако

команде Корпорации развития Краснодарского края это удалось.

www.tks.ru

Трамп запретит американцам останавливаться в гостиницах на Кубе, а также ограничит ввоз кубинского алкоголя и табака

США введут серию дополнительных ограничений в отношении Кубы, заявил президент США Дональд Трамп. Об этом сообщает Fox News.

Ограничения коснутся, в частности, кубинских гостиниц. Минфин США "запретит путешественникам из США останавливаться на объектах, принадлежащих кубинским властям", заявил Трамп. Поскольку все гостиницы на Кубе принадлежат государству, это означает, что американцы не смогут останавливаться в них.

Также администрация Трампа намерена принять меры по ограничению ввоза алкоголя и табачной продукции с Кубы.

В 2019 году власти США запретили групповые образовательные поездки на Кубу, которые ранее были разрешены американцам. Также США перестали выдавать лицензии для путешествий на Кубу частным и корпоративным судам и самолетам.

www.tks.ru

Baş redaktor N.S.AXUNDOV

«Gömrük xəbərləri» ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı: AZ 1007 Bakı şəhəri, Koveroçkin küçəsi, 30a Tel.: (012) 404 22 00

Kapital bankın 1 saylı Nəsimi rayon filialı. Hesab nömrəmiz 160233070000 kod 200112. VÖEN 1300315681

LİSENZİYA: Seriya AV №022325 Qeydiyyat nömrəsi V 125

İndeks 0178